Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Vaqif Səmədoğlu sənətinin təkrarsızlığı

**Vaqif Səmədoğlunun 80 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2019**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Vaqif Səmədoğlu sənətinin təkrarsızlığı:** Vaqif Səmədoğlunun 80 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası ; tərt.ed. A.Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova ; red. K. Ağazadə. - Bakı : F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2019. - 40 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

## Tərtibçidən

*Doğuldum 1939-da.*
*1937-də tutuldum.*
*48-də nənəm öldü,*
*ömrümdə ilk dəfə*
*ölüyə ağladım.*
*Balıqlar saxladım*
*Akvariumda.*
*Açıq qaldı pəncərəm*
*bir qış gecəsi.*
*Dondu balıqlar...*
*İndi 1965-in*
*Yanvar gecəsidir.*
*Deyəsən yaşamaq istəyirəm.*

"Hər oxuyan Molla Pənah olmaz" deyiblər. Hər şair də Vaqif olmur. Nə Molla Pənah Vaqif, nə Səmədoğlu Vaqif... Vaqif Səmədoğlu yaradıcılığı poeziyazımızda da, dramaturgiyamızda da təkrarsız, unikal hadisədir. Əlli-əlli beş il bundan əvvəl Vaqifin ilk şeirləri meydana çıxanda bunu çox az adam başa düşürdü. İndi müqayisəedilməz dərəcədə çox adam başa düşür. Gün gələcək bunu başa düşməyən qalmayacaq, qalsa da, üç cüt bir-bir tək sahil... İlk şeirlərindən o, ədəbiyyatımıza əyalətçilik çəpərlərini aşaraq gəldi. Əyalətçilik yalnız coğrafi anlayış deyil, əyalətçilik zamanının ucqarında qalmaq, dövrün nəbzini duymamaq, dünyanın dərdinə, Füzuli demiş "qəmi aləmə" biganə qalmaqdır.

Ən uzaq əyalət insanın öz içindədir: planetin ən azman şəhərlərində yaşayıb mahiyyət etibarilə əyalət adamı ola bilərsən. Vaqif şəhərlidir, şəhər şairi deyil, kənd şairi də olmadığı kimi, o dünyanı bütünlüklə-kül halında hər üzünə – şəhərinə, kəndinə, keçmişinə, indisinə, gələcəyinə,

ağrısına, acısına, sevincinə – bir sözlə, hər sirrinə vaqif olan sənətkardır. Vaqif Səmədoğlunun vaqifliyi də bundadır.

Bu aləmə daxil olandan sonra görürsən ki, "mən qaranlıq deyiləm" deyən şairin yaşadığı dünya işıqlı, təmiz, zəngindir. Burada əsl sevginin, həqiqi gözəlliyin nə olduğunu daha düzgün anlayırsan. Anlayırsan ki, şeir tənqid, tərif, tərənnüm, təbliğat vasitəsi deyilmiş. Şeir mənəvi saflığın, gözəlliyin bir üzü imiş. Tənhalıq, sükut, yaddaş, ölüm, ayrılıq haqqında yeni söz eşidirsən. Mühitin zəmanənin yetişdirdiyi yox, Allahın yaratdığı böyük, əzəmətli, canlıların alisi-İnsanla rastlaşırsan.

Bütün fəaliyyəti, bədii yaradıcılığı doğma xalqına əvəzsiz xidmət, vurğunluq nümunəsi olan qaynar təbli şairimizin, Vaqif Səmədoğlunun keçdiyi həyat yolunu oxuculara çatdırmaq və eyni zamanda böyük şairin 80 illik yubileyi münasibətlə yazdığımız bu vəsaiti oxuculara təqdim edirik. Vəsait iki hissədən ibarətdir. I hissə *"Vaqif olmaq"* adlanır və Vaqif Səmədoğlunun həyat və yaradıcılığından bəhs edir. II hissədə isə *"Vaqif sənətinin təkrarsızlığı"* adlanır və Vaqif Səmədoğlunun yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

## Yaradıcılığı

Vəkilov Vaqif Səməd oğlu şair, dramaturq, publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1970), Azərbaycan SSR Əməkdar incəsənət xadimi (1989), Azərbaycanın Xalq şairi (1999), Azərbaycan Respublikası Milli Məclisinin deputatı (2000, 2005), "Nəsimi" mükafatı laureatı (2014).

Vaqif Səmədoğlu 1939-cu il iyunun 5-də Bakı şəhərində, məşhur Azərbaycan şairi Səməd Vurğunun ailəsində anadan olmuşdur. Bülbül adına musiqi məktəbində, Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında təhsil almışdır. Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyasında

incəsənət redaksiyasının müdiri (1968-1971), “Oğuz eli” qəzetinin baş redaktoru (1992-1994) vəzifələrində çalışmışdır.

Çaykovski adına Moskva Konservatoriyasında ixtisas kursu keçib (1962-1963). Sonra Azərbaycan Dövlət Konservatoriyasında fortepiano üzrə ixtisas müəllimi (1963-1971), C.Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasında kino-aktyor teatrının ədəbi hissə müdiri vəzifəsində (1982-1985) işləyib. Poeziya, teatr və dramaturgiya sahəsində də ciddi fəaliyyət göstərib. “Yeddi şeir” adlı ilk mətbu əsəri 1963-cü ildə “Azərbaycan” jurnalında dərc olunub. Bundan sonra dövri mətbuatda vaxtaşırı çıxış etmiş, “Oğuz eli” qəzetinin baş redaktoru vəzifəsində çalışmışdır (1992-1994) Azərbaycanın Milli Məclisinə deputat seçilib (2000).

Vaqif Səmədoğlu 2015-ci il yanvarın 28-i Bakıda dünyasını dəyişib.

*Kitabları:* “Yoldan teleqramlar” (1968) “Günü baxtı”, “Mən burdayam, ilahi” (1996), “Uzaq, yaşıl ada” (1996), “Gürzəçöl yazıları” (2016).

*Dram əsərləri:* “Bəxt üzüyü”, “İntizar”, “Uca dağ başında”, “Lotereya”, “Yayda qartopu oyunu”, “Yaşıl eynəkli adam”, “Generalın son əmri”, “Mamoy kişinin yuxuları”.

## Yubiley tedbirlərinin keçirilməsi

Görkəmli şairimiz Vaqif Səmədoğlunun anadan olmasının 80 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, icmal, dəyirmi masa, ədəbi-bədii gecə və s. keçirilə bilər. Şairi sevdirmək, yaradıcılığını gənc nəslə və oxuculara tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil oluna bilər. Sərgidə şairin  müxtəlif illərdə çəkilmiş fotostendi, kitabları ilə yanaşı ədəbiyyatşünas və digər müəlliflərin onun haqqında yazdığı

kitablar, araşdırmalar, ona ithaf edilən şeirlər, kəlamlar və dövri mətbuatda yer alan məqalələr öz yerini almaqdadır. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: “Həyata vurğun Vaqif Səmədoğlu”, “Vaqif olmaq”, “Mühit içində, təpədən dırnağa ümid içində”, “Allah, məni yarı öldür...”, “Uzaq, yaşıl adanın sakini”, ““Yoxdur yer üzündə ölüm” deyən adam”, “Doğuldum 1939-da”, “Köçüb o dünyaya, bu dünya oldu”, “Vaqif Səmədoğlu − 80”, “Vaqif Səmədoğlu ömründən yarpaqlar”, “Özünü yazan şair”, “Həyata vurğun pessimist Vaqif Səmədoğlu”, “Vaqif sənətinin təkrarsızlığı”, “Vaqif zamanın yaratdığı şairdir”, “Şeir, şeir Vaqif Səmədoğlu” və s.












## Görkəmli şəxslər Vaqif Səmədoğlu haqqında

Səməd Vurğunun övladı olmaq, onun tərbiyəsini almaq, onun ailəsində böyümək özü böyük xoşbəxtlikdir.

**Heydər Əliyev,**
*ümummilli lider*

Məncə, Vaqifin ən parlaq özəlliyi, ən böyük uğuru heç kəsin demədiyini heç kəsin ağlına gəlməyən şəkildə deməsindədir. Bu poeziya bizə bildiyimizi bir daha izah etməyə çalışmır, bizi hər şeyə tamam başqa bucaqdan baxmağa çağırır.

**Anar,**
*Xalq yazıçısı*

Bir vaxt Səməd Vurğun yaradıcılığı ilə Vaqif bəy Səmədoğlunun yaradıcılığını üz-üzə qoymağa cəhd edənlər də vardı. Ədəbiyyatımızda heca vəzni ilə sərbəst şeiri üz-üzə qoyanlar da tapılmışdı. Mən o zaman həmin adamların bəzilərinə: - ədəbiyyatımızda bu sünni-şiə davasını salmaqda məqsədiniz nədir deyirdim. Vaqif bəy hansı vəzndə yazırsa-yazsın, mənim üçün onun hər bir şeiri yaradıcılıq nümunəsi idi. Şair Vaqif bəy Səmədoğlu varlığa və Azadlığa sonsuz, bəlkə də oxucu üçün ifrat vurğun, Allahın dostu, ölümlə məzələnən gözəl bir İnsan, işıqlı bir Ulduzdur!

**Əbülfəz Elçibəy,**
*Siyasi xadim*

Vaqifin böyük şair olması başqa mövzudur, o, insan kimi böyük şəxsiyyət idi. O, həyatda kim idisə, şeirlərində də o idi..

**Fikrət Qoca,**
*Xalq şairi*

Vaqif bəy Avropa səviyyəli şairdir. Və ən qəribəsi də budur ki, Vaqif bəy öz şairliyinin səviyyəsini yaxşı bilən şairdir.

**Kamil Vəli Nərimanoğlu,**
*filologiya elmləri doktoru*

Vaqifin qəhrəmanı bütün kitab boyu tənha adamdır, tənha şəxsiyyətdir. Bu onun poeziyasının güclü tərəfidir.

**Şamil Salmanov,**
*Ədəbiyyyatşünas-alim*

Vaqif Səmədoğlu dəyərli insan, gözəl şair idi. Qeyri-adi təfəkkür və istedad sahibi idi. Görkəmli atanın görkəmli oğlu Vaqif Səmədoğlunun ədəbiyyata töhfəsi əvəzsizdir. O, həmin görkəmli şəxsiyyətlərdən idi ki, yaradıcılığı bəşəriyyətin xeyirxahlığına işıq salırdı.

**Roman Quryeviç,**
*AYB İsrail şöbəsinin sədri*

Görəsən, Vaqif Səmədoğlunun elə bir şeiri varmı ki, zamanında uğurla qarşılansın və üstündən illər keçəndən sonra müasirliyini itirmiş olsun, yəni "vaxtın şeiri" kimi ömrünü başa vursun? Yoxdur və Vaqif Səmədoğlunun əksər şeirləri yazıldığı zamanı bitməyən şeirlərdir. Burada vaxt və zaman söhbətini bitirək.

**Vaqif Yusifli,**
*filologiya elmləri doktoru*

Nəğməkar şair Vaqif Səmədoğlunun yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri də, *"Mühit içində, təpədən dırnağa kimi ümid içində"* adlı ***şeir müsabiqəsidir.*** Kitabxanaçı ilk olaraq şairin bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək

təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə keçid alır. O, ilk olaraq onun  həyat və yaradıcılığından, ömür yolundan, əsərlərindən və kitablarından söhbət açır. Nəfis şəkildə nəşr olunmuş kitablar hər kəs tərəfindən rəğbətlə qarşılanır. Kitabxanaçı səhnəyə yaxınlaşaraq qonaqları salamlayır və şair haqqında qısa məlumat  verir.

*Kitabxanaçı:* Poeziya duadan başlayır. Başqa sayaq da demək olar. Tarixdən məlumdur ki, poeziya dua kimi başlanmışdır. Bir sənət növü kimi, bədii söz kimi dua şəklində meydana gəlmişdir. Buna qədim "Tövrat", "İncil", "Quran" mətnləri də misaldır, saman ayinləri də...

Allaha inanan gecəmdir yenə
Şeir oxuyuram dua yerinə.

Poeziya şairin Allahla söhbətidir. Qəribə dioloqdur bu. Şair Allaha müraciət edir:

Allah, bir az da möhlət ver,
Öldürmə, sağ saxla yenə.
Beş-on yazılmamış şeirim
Beş-on duam qalıb sənə...

Şair ulu tanrıya yalvarır, ondan nə isə gözləyir, umur-kömək, imdad, nicat, ümid, izah, təsəlli. Elə bil dualar, yalvarışlar Allaha yetmir.

Bəlkə dualarımı
yolda vururlar?
Yaralı dualar
yetə bilmir hüzuruna
Ulu Tanrı?
Kimin var Ulu Tanrı
Məndən savayı bu dünyada?
Kimim var səndən başqa
Bu aləmdə mənim?

Sən tək, mən tək,
Ulu Tanrı

*İlk iştirakçı səhnəyə yaxınlaşaraq şeirini deməyə başlayır.*

“Vətən” sözünü
Pıçıltıyla deyirəm.
Allaha inanıram
Qaranlıq düşəndən sonra.
“Azadlıq” kəlməsi
ovda çıxar ağzımdan,
o da yalnız
tüfəngim açılan anda...

*İkinci iştirakçı səhnəyə yaxınlaşaraq şeirini deməyə başlayır.*

Qağayı, axtar məni.
Birlikdən və tənhalı
Bu payız da başlandı...
Eşidirsənmi?..
Mühit içində...
Ədalarından çaşdığım qadın...

*Üçüncü iştirakçı səhnəyə yaxınlaşaraq şeirini deməyə başlayır.*

Özgə otağının kiri. Divarda Stalin...
Dənizdən ayrılmış qupquru qaya...
Əyrin-üyrün, dar küçələrin...
Doğuldum 1939-da...
Uşaqkən ölənlərin...
Bax bu kitabı da oxuyub...

*Dördüncü iştirakçı səhnəyə yaxınlaşaraq şeirini deməyə başlayır.*

Qış gələndə...
Sən mənim doğma anamsan, Azadlıq...
Vicdan kirəsi tək gəlir evimə...
Olan-qalan yayımızı...
Bir gün dəli olacağam...

Əlimi uzatdım...
Uşaqlığımın meşəsində...
Mən ölən gün...
Mənə bir az yağış...
Bir gün səslənəcək bu telefon...
İlahi, hansı dildə yalvarım sənə?..
Kağızın üstünə düşüb...
Ah çəkməyə bir yer...
İçən günlərimi sayır...

*Növbəti iştirakçı səhnəyə yaxınlaşaraq şeirini deməyə başlayır.*

Ölüm bir gün də tək qoymur məni...
Allaha, bir də qadına...
Məni sevib ayrılmağa...
Salam, ata...
Bu əllər əvvəl-axır...
Ölüm ayağında yuyulan günah kimi...
Biz yox, Allah inanmır bizə...
Məzara bənzəyir yaxşı insan...
Yaman həzin, yanıqlı bir nəğmə kimi...
Dəlixanada axşamdır...
Bu yorğunluq nəyə bənddir?..
O əyri yol, tək vələs...
Gözəl qızlardan, qadınlardan...
Mənə vətən yolu dar gəlir yenə...
Sabah kiminsə gözündə nifrət...
Yusif Səmədoğluna
İndi gileydən, güzardan...
O bayrağın kölgəsində...
Pis olmazdı yavaş-yavaş...
Günaha batmağım gəlib, ay Allah...
Polyak qızı, mən sənə...
Ömrümdə olmalıymış...

*Sonda münsiflər heyəti qiraəti ilə fərqlənən iştirakçıları mükafatlandırır.*

Vaqif Səmədoğlunun 80 illik yubileyi ilə bağlı kitabxanada keçirilən tədbirlərdən biri də *"Vaqif olmaq"* adlı **dəyirmi masadır.** Kitabxanaçı tədbir zamanı oxuculara ədibin özü və yaradıcılığı haqqında gərəkli məlumat verir. Şeirlərindən sitatlar göstərir.

*Kitabxanaçı:* Vaqif Səmədoğlu şeirinin başlıca leytmotivi insan ömrünün beşikdən məzara, olumdan ölümə qədərki yolun sonsuzluğudur. Onun şeirlərində həyat eşqi, yaşamaq yanğısı o qədər qeyri-adidir ki, kifayət qədər kədərli və kifayət qədər ağrılı notlarla qarşılaşsan da, bu hissiyyat səni pessimist olmağa qoymur. Ən kədərli şeirində belə Vaqif Səmədoğlu səndə ölüm həyəcanı, dünyadan ayrılmaq duyğusu yaratmır.

Səndən yenə
qar yağır.
Yenə sazaq dolu sinəndən
şaxtalı sözlər,
qırovlu ahlar,
buz bağlamış
gülüşlər çıxır.
Ölüm qat-qat istidir səndən.

Nəyi intixab etməli? Qarlı, şaxtalı, buz bağlamış, sazaq dolu gülüşlərimi, yoxsa bu soyuqluqdan qat-qat isti ölümü? Ümumiyyətlə, Vaqif Səmədoğlu Ölüm haqqında ən çox söz açır, amma heç bir şeirində ölümü qorxulu, vahiməli obraza çevirmir, ölüm haqqında mümkün qədər sakit və təmkinli danışır, ölümü də həyat qədər dəyərləndirir. Baxırsan, onun şeirlərində həyatdan, insan qəlbinin çırpıntılarından, gerçəkliyin sənə çəkdirdiyi ağrı-acılardan çox şey var, amma bütün bunlar şəklin görünən üzüdür. "Neçə ildir iki eynək şüşəsi durur

dünyayla gözlərimin arasında”- əslində, o iki eynək şüşəsi arxasında iki gözün bəsirət dünyası boylanır.

Vaqif Səmədoğluya filosof-şair təyiniylə yanaşmaq heç bir çətinlik törətmir. Çünki onun poeziyası başdan-ayağa fəlsəfi ahəng üstündə köklənib. Bu, həyatın fəlsəfəsidir. Düşüncələrin poeziya şəklində ifadəsidir.

İlahi,
yatağın nə sağında,
nə solunda,
nə bir gözəlin qolunda
yatmaq istəyirəm.
İlahi,
nə söyüd kölgəsində,
nə dünyanın ən azad ölkəsində
yatmaq istəyirəm.
İlahi,
dar quyu dibində,
qaranlıq nəm içində,
işıqlı qəm içində,
ağrısız
yatmaq istəyirəm.

Əbədi narahatlıq nədən doğur? İnsan mövcudluğunu yalnız nəyəsə nail olmaq, nələrisə əldə eləmək, rahatlıq və bolluq içində nəfəs almaq kimi obıvatel düşüncəyə sərf eləmək deyil, həyatın, dünyanın, səni əhatə edən mühitin dərkinə səfərbər etmək insanı sonsuz sayda suallar qarşısında qoyur. Vaqif Səmədoğlunun poeziyası bu sualların cavabıdır.

Bir gün şirin,
bir gün acıyam,
Bir gün kiminsə ayaqaltı,
bir gün kiminsə tacıyam.
Bir gün çağa,

bir gün ixtiyar qocayam.
Bir gün zirzəmi,
Bir gün damda bacayam.
Amma hər gün hamıya,
salam-duaçıyam.

Vaqif Səmədoğlu poeziyasını son zamanlar dekadentizm ədəbi cərəyanı çərçivəsində təhlil edirlər. İfrat fərdiyyətçilik və pessimizm, ictimai həyata etinasızlıq, şəxsiyyətin görüşlərindəki, əhvali-ruhiyyəsindəki düşgünlük - vaxtilə, Sovet dönəmində, sosrealizm zamanında dekadentizmi bu cür səciyyələndirirdilər. İndi necə, nə dəyişilib? Sırf kədər fəlsəfəsi, insanın kədərlə "qol-boyun olması", ölümlə bağlı düşüncələr, dünya ilə küskün mövqedə dayanan "mən"in tənhalığı-indi şeirimizdəki "çöküş fəlsəfəsi"ni belə mənalandırırlar.

Təbii ki, hər bir poetik düşüncənin öz adı olmalıdır. Və dekadentizmin, eləcə də digər ədəbi cərəyanların bizim poeziyada yuva qurması, təzahürü birmənalı qarşılanır. Biz də bu fikirlərə müəyyən dərəcədə haqq qazandırırıq. Doğrudan da, Vaqif Səmədoğlunun şeirlərindəki ağrı-acını, Allah, Dünya, Ömür və Ölüm haqqında düşüncələrini bir yerə toplayanda belə qərara gəlirsən ki, o, bu dünyanın-faniliyin içində əzab çəkirmiş. Nəsimi deyirdi: "Olmuşam dərdü-fəraqından zəif ol həddə kim, Gətirəməzlər xəyala nəqşimi nəqqaşilər". Bu beyt klassik poeziyanın lirik qəhrəmanının əzablarının böyüklüyünü fantastik dərəcədə göz önündə canlandırır, romantika özünün ən yüksək zirvəsinə çatır. Amma Vaqifin şeirlərində günün, zamanın əzablarından doğub içindən fəvvarə vuran dərdlər baş alır.

Getmə, getsən
bir şüştər açılar qürbətdə,
vətəndə
səhər kimi!

Zili-dar ağacı
bəmi- məzar.

"Şüştər" Azərbaycan muğamları içərisində ən kədərlisidir (bunu daha Üzeyir Hacıbəyli söyləyib). Qürbətin doğurduğu kədər hissi ilə vətəndə açılan səhərin bənzəyən-bənzədilən müstəvisində yerləşdirilməsi, nəticədə iki obrazın (Vətən və Qürbətin) "hibriti"ndən üçüncü bir obrazın-"Şüştər"in yaranması assosiativ təfəkkürün məhsuludur. Sonuncu iki misra isə yeni-üçüncü obrazın əlaməti kimi diqqəti cəlb edir: zili-dar ağacı, bəmi məzar.

Amma unutmayaq ki, Azərbaycan poeziyasında kədər, göz yaşı motivlərinin tarixi çox qədimdir və onda beş-altı şair istisna olunmaqla poeziyamızı dekatentizm poeziyası adlandırmalıyıqmı? Yəni məsələnin bu tərəfi də var. Digər tərəfdən, dekadent adlandırılan şeirlərində elə nikbin çalarlar var ki, tamamilə kədərə, ümidsizliyə qarşıdır. Elə Vaqif Səmədoğlunu götürək:

Mühit içində
təpədən dırnağa kimi
ümid içindəyəm.
Dalamır indi məni
nə illərin
başyuxarı axarı,
nə də ömrün
üzüqoylu axırı.
Bilirəm,
yer üzündə bütün izlər
ömürdən gedir,
dəniz belə gözdən itir.
Bilirəm,
yer üzündə
bir yol da salınmadı

insan gözündən.
Tapılmadı itənlər.
Mənsə gah həyata,
gah ölümə səbəb gəzirəm.
Yaşayıram, dözürəm.
Bir misra da, bir gecə də.
Çünki
mühit içində
təpədən dırnağa kimi
ümid içindəyəm.

Vaqif Səmədoğlu şeirinin özəllikləri haqda da söz açmaq gərəkdi. Həm hecada, həm də sərbəstdə onun gözəl şeir nümunələri var. Şeirdə novatorluq cəhdlərində bulunmaq, dildə yeniliyə nail olmaq çətindir və şeirin hansı vəzndə yazılmasından asılı olmayaraq bu, hünər tələb edir. Gəlin belə bir fikirlə razılaşaq ki, söz istənilən bir mənaya malik ola bilər, o, buqələmundur, hər dəfə onda təzə çalarlar, hətta bəzən təzə rənglər də meydana gələ bilər. Bu mənada Əli Kərimlə Vaqif Səmədoğlu müasir Azərbaycan şeirində xüsusilə seçilir. Sərbəst şeirə xas olan bir çox özəl keyfiyyətlər onların poetik təfəkkürünün zənginliyini nümayiş etdirir. Əli Kərimdə bu özəllik sözün mətn arasında qəribə və gözlənilməz assosiasiyalarla başa çatırsa, Vaqif Səmədoğluda bu, çox zaman heç bir qeyri-adiliklə şərtlənmir.

Yer üzündə
bircə qadın varsa
məhəbbət var yer üzündə.
Yer üzündə
bircə cocuq varsa,
övlad var yer üzündə.
Yer üzündə
bircə ağac varsa,

kölgə var yer üzündə.
Yer üzündə
bircə tikə torpaq varsa,
vətən var yer üzündə.

Vaqif Səmədoğlunun sərbəst şeirlərində elə ilk misradan şeirin bütün ideyasını açıqlayan fikrin özəyi, təməl daşı qoyulur. Məsələn, o, bir şeirini "Məzara bənzəyir yaxşı insan" misrasıyla başlayır. Təbii ki, uzun müddət çox şeirlərdə əsas fikri yalnız şeirin son misrasında ifadə etmək kimi şablon bir üsuldan imtina edib, bunu əvvələ keçirmək yenilik kimi görünməsə də, hər halda fikrin pilləvari inkişafı kimi maraqlıdır. İnsan niyə məzara bənzəyir? Çünki məzar kimi o da yaya, qışa dözümlüdür, məzar daşı kimi dinməzdir. Şeirin sonluğuna diqqət edək: "Uzaqdan başdaşına bənzəyir insan, yaxından ağlaşmağa".

Vaqif Səmədoğlunun sevgi şeirləri ayrıca bir söhbətin mövzusudur.

Yuxuda kimi görmüsən
bu gecə?
Gözlərində bir yalqız məzarın
kimsəsizliyi var.
Yum gözlərini,
gözlərinə baş çəkim,
bir dəstə gül qoyum gözlərinə.

Vaqif Səmədoğlu Azərbaycan poeziyasında nadir Təklərdən biri idi. Təklərdən yazmaq, onların şeirlərini izah etmək çətindir.

Kitabxanada şairin yubileyi ilə bağlı keçiriləcək tədbirlərdən biri də **"Mən burdayam, ilahi"** adlı *oxucularla söhbət* ola bilər. Şair, dramaturq, ictimai xadim Vaqif Səmədoğlu (Vəkilov) XX əsrin böyük söz ustadlarındandır. O, 1939-cu il iyun ayının 5-də Bakıda doğulub. F.Q. Lorkayla, M.Müşfiqlə bir gündə doğuldu. Lorka Franko diktaturasının, Müşfiq Stalin diktaturasının

qurbanı oldu, Vaqif isə özünə qeyri-adi tərcümeyi-hal yazaraq mənən onların aqibətini yaşadı:
Doğuldum 1939-da, 1937-də tutuldum...

Doğumları eyni aya, eyni günə düşən bu üç böyük şairi həm də poeziyaya olan bağlılıq birləşdirir. Gitar səsini İspan poeziyasına hopduran Lorkanı, tar nəfəsini, tar sözünü şeirimizə qaytaran Müşfiqi və caz, klassik musiqini şeir diliylə danışdıran, -Minorda ömür sürüb, Majorda ölmək-Baxın əsəri kimi... -deyən Vaqif Səmədoğlunu.

Vaqif Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Səməd Vurğunun ailəsində doğulan üçüncü övlad olub. Anası Xavər xanım musiqi təhsili görmüş (piano üzrə), sonradan Bakı universitetinin filologiya fakültəsini bitirmişdi. Pianoda ilk notları Vaqifə göstərən anası Xavər xanım olmuşdu.

Markiz adalarında
doğsaydı məni anam,
adımı yəqin ki,
Xemao qoyacaqdı atam.
Mənim şərəfimə
Bir şeir də yazacaqdı
Samoa dilində.
Boya-başa çatıb Xemao,
Bakının doğum evində
doğulmağını istəyəcəkdi.
Arzulayacaqdı
adının Vaqif qoyulmasını.
Və Markiz adalarında
darıxacaqdı zavallı...

Vaqif ədəbi-mədəni mühitdə böyümüş, uşaqlıqdan evlərində ailəsinin ünsiyyətdə olduğu və dostluq etdiyi tanınmış musiqiçiləri, yazıçıları, şairləri, rəssamları görmüşdü. Hər şeyi

öyrənmək, bilmək marağı, musiqiyə, kitablara olan həvəsi onu yetkin bir gənc kimi yetişdirmişdi.

Vaqif orta təhsil aldığı indiki Bülbül adına musiqi məktəbini fortepiano sinfi üzrə 1956-cı ildə əla qiymətlərlə başa vurmuş və mükafat olaraq filarmoniyada maestro Niyazinin rəhbərlik etdiyi simfonik orkestrlə S.Raxmaninovun 1-ci konsertini ifa etmişdir. Həmin il daxil olduğu Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının fortepiano sinfini 1962-ci ildə müvəffəqiyyətlə başa vurmuş, həmin il Azərbaycan gənclərinin üçüncü festivalında fortepiano üzrə laureat adını qazanmışdır. 1962-1964-ci illərdə P.İ.Çaykovski adına Moskva Konservatoriyasında stajor olmuşdu.

Xruşşov "ottopeli" dövrünə təsadüf edən bu illərdə azad təfəkkürün qaynadığı Moskva mühitiylə nəfəs almaq, azad düşüncəli yaradıcı insanlarla görüşlər, təmasda olmaq Vaqifin dünyagörüşünə öz təsirini göstərməyə bilməzdi. Moskvadan qayıtdıqdan sonra o, 1964-1972-ci illərdə Bakı konservatoriyasında fortepianodan dərs demişdir.

İri, mavi mamont idim,
yer üzünün buz ömründə..
O vaxt nə Koroğlu vardı,
nə Meri Pikford,
nə Lemberanski,
nə Henrix Ford.
O vaxt
sağ yox idi, sol yox idi.
İşıqforlu yol yox idi.
Buz...
Dəniz...
Yenə buz...
Soyuq idi...
İri, mavi mamont idim.

İndi...fortepiano müəllimiyəm...

Qeyd etmək lazımdır ki, keçən əsrin 80-ci illərində bu şeir Pribaltika ölkələrində çox populyar olmuş və Latviya məktəblərinin ədəbiyyat dərsliklərinə salınmışdı. Vaqifin musiqi janrının bütün sahələrini professional səviyyədə bilməsi, Şopen, Mosart, Maler, Raxmaninov və başqa klassiklərə ehtiramı, Amerika cazını və ümumiyyətlə, modern cazı dərindən bilməsi və fortepianoda gözəl ifası yaradıcılığından yan keçməmiş və o, ömrünün sonuna kimi musiqi ilə nəfəs alan şair olaraq qalmışdır. 80-cı ilin ortalarında AzTV-də "Caz klub" verilişinin əvəzsiz aparıcısı kimi Vaqif Səmədoğlu caz musiqisinin Azərbaycanda təbliğində böyük rol oynamışdı.

23-cü il olaydı.
Olaydım Çikaqoda.
Bir kafedə qəlyan
çəkə-çəkə oturaydım.
Və mütləq bir svinq çalınaydı orda.
Çalınaydı kökdən düşmüş qəhvəyi royalda.
Çalanı özüm,
həm də zənci olaydım mütləq...

Artıq seçimini ədəbiyyat xeyrinə edən Vaqif Səmədoğlu 1967-1970-ci illərdə Azərbaycan Ensiklopediyasında incəsənət şöbəsinin müdiri vəzifəsində, 1970-ci illərin əvvəllərində C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında ssenari emalatxanasında ssenarist, 1978-1982-ci illərdə "Yazıçı" nəşriyyatında redaktor kimi və 1982-1985-ci illərdə kinostudiyada kinoaktyor teatrının ədəbi hissə müdiri işləmişdir. 1992-1994-cü illərdə Azərbaycan yazıçılarının müstəqil qəzeti olan "Oğuz eli"nin baş redaktoru olmuşdur.

80-cı illərin sonlarında Azərbaycanın müstəqilliyi uğrunda gedən Milli Azadlıq mübarizəsində fəal iştirak etmiş, Azərbaycan müstəqillik qazandıqdan sonra Milli Məclisin

deputatı (2000-2010) və Azərbaycanın Avropa Şurasındakı nümayəndə heyətinin üzvü(2000-2005) olmuşdu.

Ədəbiyyata gəldiyi ilk gündən Vaqif şeirlərinin fəlsəfi dərinliyi, orijinal deyim tərziylə diqqəti cəlb etdi. Gənc müəllifin şeirləri ilə ilk tanışlıqdan heyrətlənən Xalq şairi Rəsul Rza yazırdı: "...Mümkünmüdür, ilk dəfə əlinə qələm alan bir gənc belə bitkin, müasir təfəkkür və geniş müşahidələrlə zəngin şeirlər yazsın..."

Vaxtsız ölsəm, çox yaşadı deyin.
Vaxtsız öldü, deyin, qoca ölsəm.
Bir il yatıb, ölsəm, qəflətən öldü, deyin.
Uzun sürən xəstəlikdən sonra öldü, deyin,
qəflətən ölsəm...

Şeirlərindəki təfəkkür müasirliyi yalnız forma və biçimdə təzahür etmirdi, hərçənd Vaqifin şeirləri bu cəhətdən də yeni idi. Eyni zamanda onun şeirlərindəki bəşəri hisslərin adiliyi, təbiiliyi və qeyri-adiliyi, poetik təfəkkürünün gücü diqqəti cəlb edirdi.

Məzarıma nə baş daşı qoyun,
nə heykəl.
Bir cüt ayaqqabı qoyun,
ayağıyalın geyib getsin...

Rəsul Rza Vaqif haqqında "Geniş yola çıx" adlı məqalə yazaraq onun bir neçə şeiriylə birlikdə 1963-cü ildə "Azərbaycan" jurnalında dərc etdirdi.

Bu il Vaqif Səmədoğlunun yaradıcılıq yolunun başlanğıcı hesab oluna bilər. Ancaq bu yol çox kəşməkeşli, enişli-yoxuşlu oldu...

Məlumdur ki, 60-cı illər cəmiyyətin tarixində oyanma, özünəqayıdış mərhələsi kimi təhlil edilir. Yeni obrazlar, ifadə tərzi, dünyaya, həyata yeni münasibətlər formalaşmaqda idi. Və Vaqif Səmədoğlu bu yeniləşmə prosesində öndə gedən sənətkarlardan oldu.

1968-1972-ci illərdə gənc şairin "Yoldan teleqram" və "Günün baxtı" adlı iki kiçik şeirlər toplusu böyük çətinliklərdən sonra qısaldılmış şəkildə, məhdud tirajla çap olundu.

Vaqifin ədəbiyyata gəlişi bir hadisəyə çevrildi. Şeirləri əl-əl gəzir, əzbərlənir, başqa dillərə tərcümə edilirdi. Şeirləri oxucunu sarsıdır, düşündürür, heyrətləndirirdi. 70-80-cı illər bir neçə nəsil gənc Azərbaycan modernist şairləri üçün o, ədəbi Quru olmuşdur.

Şeirləri forma, obraz və mövzu cəhətdən sovet ideologiyasıyla uzlaşmadığından gənc şair rəsmi tənqidin mühafizəkar hücumlarına məruz qaldı. Bundan sonra o yazdıqlarını üzə çıxarmamaq qərarını verdi.

Şeirlərimi yazan kimi
unutmaq istəyirəm,
elə bil kağıza yox,
nəyinsə baş daşına
həkk olunur sözlərim...

Öz poetik dünyasına sadiq qalaraq Vaqif yaza-yaza susmağı seçdi. Bu həm də onun protesti idi.

Bir az çəkil,
ölümə yer saxla yanında,
ölümsüz göstərmə özünü
Qız Qalası,
Xəzərdən gen düşmüş bu şəhərdə.
Ayıbdır, yavaş,
bir az yavaş danış,
şairlər susan bu şəhərdə...

"Susan şair" ifadəsi Vaqifin ədəbi taleyinin rəmzinə çevrildi. Çap olunmamaqla o, özünü sovet senzurasının təzyiqlərindən qorudu və bir şair kimi öz azadlığını, ideya, fikir azadlığını qoruyub saxlaya bildi. Heç bir ideoloji-siyasi tələblərə boyun əymədən öz poetik "mən"inə sığınaraq susmaq əzabını yaşadı,

təsəllisini "Şair sözündən qorxan  ya cəllad, ya dəlidir", aforizmində tapdı.

Etiraf edilməlidir ki, nə vaxtsa yazdıqlarının üzə çıxa biləcəyi ümidinin çox cüzi olmasına baxmayaraq Vaqifin sınmaması, yorulmadan, usanmadan hər gün yaza bilməsi, sözün əsl mənasında şair hünəri idi.

Şairin şeir kitabları yalnız müstəqillik illərində işıq üzü görə bildi. 24 ildən sonra çap olunan şeirləri sübut etdi ki, Vaqifin şeirləri siyasi quruluşların, ictimai təsisatların fövqündə, zamanın fövqündə duran poeziyadır.  Dünyəvi və yaşardır.

Poeziya aləmində özünəməxsus dərin dəst-xətti olan Vaqif Səmədoğlu Azərbaycan şeirinin novatorlarındandır. Onun bütün poeziyası özünü, öz daxilini anlamaq, onun dərinliklərinə varid olmaq ehtirasıdır. Eyni zamanda şeirləri həyatın, cəmiyyətin, insan psixologiyasının fəlsəfi təhlilidir. Onun şeirlərinin adı yoxdur. Şeirlərinin sonunda isə adətən üç nöqtə qoyulur. Məzmun etibarilə Vaqif Səmədoğlunun poeziyasında Şərq şairlərindən gələn fəlsəfi dərinlik var. Eyni zamanda onun şeirləri çağdaş şeirlərdir.

Allah, Azadlıq, Tənhalıq, Ölüm – Vaqif Səmədoğlu poeziyasının əsas mövzularıdır. Bu mövzuların hər birində o orijinaldır, yenidir. Onun "Allaha müraciət" mövzulu şeirləri poeziyamızda ilk dəfə olaraq Allah üzərindəki mistik örtüyü götürdü. İnsanla Allah doğmalaşdı.

Kimin var Ulu Tanrı
məndən savayı bu dünyada?
Kimim var səndən başqa
bu aləmdə mənim?
Sən tək, mən tək,
Ulu Tanrı...

Yaradıcılığa gəldiyi ilk gündən Allahla aramsız dərdləşmənin məntiqi nəticəsi kimi Vaqif dərindən dərin bir mətləb kəşf etdi.

Həmişə Allahdan imdad diləyən şair bu dəfə dünyanı, insanı Allaha kömək etməyə çağırdı:

... İndi nə dua, nə qarğış,
Nə nəzir demək vaxtıdır.
Dünya susmalıdır artıq,
Allaha kömək vaxtıdır...

Ölüm barədə Azərbaycan poeziyasında Vaqif Səmədoğlu qədər çox yazan şair az olar. Ölümlə ömür bir yolun mənzilləridir, ömür doğulandan ölüm onu bəsləyir, özü üçün saxlayır. Ömürsə yırğalanır ölümün beşiyində... Ölüm ömrün məşəqqətlərindən keçməsini dözümlə izləyir, ən sədaqətli sevgili kimi onun vüsalını gözləyir. Ölüm yetim kimi durub qapı dalında...

Vaqif ölümün mütləqliyini əbədi həqiqət bilib, insanı ona hazırlayır, ondan qorxmamağa alışdırır. Ömrə dözməyə çağırır. Təsvir obyektinə yeni fəlsəfi münasibət, az sözlə geniş təəssürat yaratmaq, dərin fikir söyləmək onun poeziyasının fərqli, əvəzsiz cəhətlərindəndir. Vaqifin düşüncə tərzi də, deyim tərzi də yenidir, orijinaldır.

Göz yaşı da axar sudur,
tapır axarını,
burda batsa bu gün
gəlib sabah ordan çıxacaq,
bir göz tapıb özünə
yer üzünə axacaq.
Bizdə quruyub
sizdə yaşaracaq...

Vaqifin sənətinin böyüklüyü onun bənzərsizliyində, yalnız özünə məxsus stilindədir. Heç kəsin demədiyini gözlənilməz, ağla gəlməz şəkildə deməsindədir. Onun hikməti bənzətmələrində üzə çıxır. Hər bənzətmənin arxasında fəlsəfi obraz düşünülür. Bənzətmələr təşbeh səviyyəsinə qədər ucalır:

Göz yaşı dənizindən tutulan balıq tarix dadı verir; isti çörək təki dadlı, yayda səslənən muğam kimi tənbəlsən; kənddə qapı ağzında oturub keçmişə baxan qarıya bənzəyir göy üzü bu gün; Ən xoş niyyət də pisliyə dönür əvvəl-axır, qalib gəlib hakimiyyət olmuş inqilab kimi; Qafiyəmdi, uşaq təbəssümü....

Şeirləri ümumiləşdirmələrlə, hikmətli ifadələrlə, müdrik kəlamlarla da zəngindir. Vaqif Səmədoğlu poeziyası Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsi ilə müqayisə edilir. Belə ki, onun da poeziyasında mütləq mənada qəm, xoşbəxtlik, sevinc, məhəbbət, yalan, həqiqət yoxdur, mütləq şəkildə təkcə Tanrı qəbul edilir. Bu məntiqi Vaqif öz ədəbiyyatında bədii dillə ifadə etmişdir.

Hansı janrda yazırsa yazsın - şeir, pyes, kinossenari, pritça, mahnı mətni-onun böyük istedadı görünür. O, milli dramaturgiyamızı dolğun məzmunlu əsərləri ilə zənginləşdirərək yeni mərhələyə yüksəltmişdi. Vaqif Səmədoğlu insan-cəmiyyət münasibətlərinin dərinliklərinə nüfuz etməyi bacaran mütəfəkkir bir sənətkardır. Onun yaradıcılığı milli mənbələrlə sıx bağlı olduğu üçün çox qüvvətli və zəngindir. Pyesləri tutarlı sözlər və məsəllərlə doludur. Xalq ləhcəsindən, şivəsindən böyük ustalıqla istifadə edən sənətkarın özünəməxsus fərqli yumoru, üslubu əsərlərinə xüsusi maraq doğurur. Azərbaycan teatrlarında səhnə təcəssümü tapmış "Bəxt üzüyü", "Yayda qartopu oyunu", "İntihar", "Generalın son əmri", "Mamoy kişinin yuxuları" tragikomediyaları və "Yaşıl eynəkli adam" trilogiyası, "Yumurta" kimi televiziya filmləri tamaşaçı məhəbbəti qazanmışdı. Vaqif Səmədoğlunun əsərlərində bütün gülüşlərin arxasında insanı düşündürən, silkələyib ayıldan bir kədər dayanır. Onun pyeslərində diqqəti çəkən həm də personajların dilidir. Hər kəs öz dilində danışır. İstər ləhcə, şivə, istərsə də daxili nitq, məntiqi fikir. Bir çox

əsərlərində səslənən fikir və deyimlər xalq arasında folklor nümunəsi kimi yayılmışdı.

Poeziyadakı Vaqif Səmədoğlu ilə dramaturgiyadakı Vaqif Səmədoğlunu müqayisə edənlər onları bir-birindən fərqləndirirlər: Nədən onun şeirlərindəki kədərlə pyeslərindəki zahiri nikbinlik bir təzad təşkil edir? Buna Vaqif Səmədoğlu belə cavab verirdi: "Heç bir ziddiyyət yoxdur. Mənim yaradıcılığım hamısı bir şeirdir".

Vaqif Səmədoğlu milli-bədii təfəkkürə, qlobal bəşəri-dünyagörüşə əsaslanan fundamental ədəbi-ənənə yaratmışdır. Onun əsərlərinin ideya-fəlsəfi dərinliyi imkan verir ki, gələcək ədəbi nəsillər bu irsdən dəyərli mənbə kimi örnək götürsünlər.

80-cı illərin sonlarında Vaqif Səmədoğlu Azərbaycanda başlanan milli-azadlıq hərəkatının fəallarından biri olduqda, bu onu tanıyanları təəccübləndirmədi. Çünki Vaqif Səmədoğlu öz poeziyasıyla totalitar şüuru alt-üst edən və özünün iç mübarizəsində İstiqlalını qazanan birincilərdən idi. O, xalqımızın o dövrdə siyasi və sosial sarsıntılar içərisindəki əhvali-ruhiyyəsini dəqiq ifadə edərək, dünyada tənha olduğunu elan etmiş və "Milli Tənhalıq" anlayışını işlətmişdir.

Haraya hay verməyib,
Dünya keçir kar kimi.
Bir kor dəyir divara
Bizim dualar kimi...

İnsanilik, müdriklik, qətiyyət Vaqif Səmədoğlunun şəxsiyyətini səciyyələndirən əsas amillərdir. Qlobal düşüncə sahibi olan sənətkar hadisələrə təmkinli, ayıq, fərqli baxışı ilə seçilmiş, öz sözünü demişdir. Bu cəhət onun Milli Məclisin deputatı kimi də fəaliyyətinə xasdır. O, beynəlxalq və Avropa qurumlarının tədbirlərində Azərbaycanı ləyaqətlə təmsil etmiş, ictimai-siyasi məsələlərin müzakirəsində özünün prinsipal

ölçülü mövqeyi ilə seçilmişdi. Bir insan kimi həddən artıq təvazökar olan Vaqif Səmədoğlunun incə yumoru, yüksək intellektual səviyyəsi, sadəliyi onunla həmsöhbət olanları məftun edirdi. Bu xüsusiyyətlər ona xarici deputatların da hörmətini, sevgisini qazandırmışdı.

Vaqif Səmədoğlu 1999-cu ildə Xalq şairi adına layiq görülmüş, 2004-cü ildə "Şöhrət", 2009-cü ildə "Şərəf", 2014 - cü ildə "İstiqlal" ordenləri ilə təltif edilmişdi.

2015-ci il yanvar ayının 28-də amansız xəstəlik bu böyük sənətkarın həyatına son qoydu və o, Fəxri Xiyabanda dəfn olundu.

Səməd Vurğunun Ev Muzeyində Vaqif Səmədoğlunun həyat və yaradıcılığına həsr olunan ekspozisiya yaradılmışdır.

Vaqif Səmədoğlunun həyat yoldaşı – fəlsəfə doktoru Babayeva-Vəkilova Nüşabə Rəşid qızıdır. O, Vaqif Səmədoğlunun kitablarının tərtibatçısı və redaktoru olmaqla yanaşı onların işıq üzü görməsində böyük rol oynamışdır. 2015-ci ildən S.Vurğunun Ev muzeyinin direktorudur.

Vaqif Səmədoğlunun 80 illik yubileyi ilə bağlı kitabxanada keçirilən tədbirlərdən biri də *"Vaqif qələmi"* adlı **biblioqrafik icmaldır.** Kitabxanaçı biblioqrafik icmal keçirərkən oxuculara ədibin kitabları haqqında məlumat verir. İlk olaraq kitab sərgisi təşkil olunur və ədibin öz kitabları ilə yanaşı onun haqqında yazılan digər kitablar haqqında məlumat verilir.

*Kitabxanaçı:* İlk kitab Vaqif Səmədoğlunun "Günün baxtı" adlanır. Kitab 1972-ci ildə Bakı, "Gənclik" nəşriyyatı tərəfindən nəşr olunur. Kitabda şeirlərlə bərabər kiçik poemalar da kitaba rəngarənglik gətirir.

Digər kitab ədibin 2005-ci ildə nəşr olunmuş "Mən burdayam, ilahi..." adlı kitabıdır. Şairin ilk böyük şeirlər kitabı olan "Mən burdayam, ilahi..." 1996-cı ildə kiril qrafikası ilə işıq üzü görmüş, indi isə latın qrafikasıyla nəşr edilmiş həmin kitabı

oxuculara şairin son illərdə yazdığı bir neçə şeirlərinin əlavəsi ilə təqdim edirik. Vaqif Səmədoğlu! Yaradıcılığı mədəniyyət aləmində həmişə marağa, hadisəyə səbəb olan sənətkar... Vaqif Səmədoğlunun bütün yaradıcılığını Özünü, Öz daxilini anlamaq, onun dərinliklərinə varid olmaq ehtirası, müqəddəs bir ehtiras bürüyüb...

Əziz oxucu! Sizi mütəfəkkir-şairin poeziyası ilə görüşə dəvət edirik.

Növbəti kitab "Uzaq yaşıl ada" adlanır. Bakı, "Şərq-Qərb", 2004, 264 səh.

Vaqif Səmədoğlu! Şeirlərini həmişə həsrətlə gözlədiyimiz, sevə-sevə oxuduğumuz bənzərsiz Azərbaycan şairi... Bugünkü ədəbiyyatımızda tənhalıq poeziyasını yaradan söz ustası kimi onun bir ayrı yeri var.

Vaqifin şeirləri ilahi ilə söhbətdir. İlahi ilə söhbət hər insanın, hər şairin işi deyil. Vaqif Səmədoğlunun tənhalığı məzmun etibarı ilə ilahi tənhalıqdır. Oxuculara təqdim olunan bu kitabda şairin müxtəlif illərdə qələmə aldığı əsərlər toplanmışdır. Bu əsərlər əvvəli və sonu bilinməyən bir səsdi. Mışıl-mışıl yatan südəmər körpənin, bir ömür yaşamış yaşlı bir insanın nəfəsi var onlarda. İnsan qulağının eşitmə hüdudlarını aşıb birbaş ovqata keçir bu səs. Qulaq asaq, dinləyək, dinləyək, "Burada bürküyə ilişib çıxa bilməyən" bu səsdə, "qərib şeirə dönmüş ana dilin sözlərini"...

Bu şeirlərdə pıçıltı-pıçıltı açılan çiçəklərin səsi, nəfəsi, qürub çağının bənzərsiz rəngləri, uzaq, yaşıl, bir adanın tənhalığı, Ay işığından könüllərə yol çəkən, müqəddəs, "dərdin, səadət yaratmaq" istəyən bir şairin sehrli dünyası var.

Gəlin, zeytun kölgəsinin sərinliyi hopmuş, uzaqlardan yol gələn bu qərib nəğmələri birlikdə oxuyaq.

Mütəfəkkir-şair Vaqif Səmədoğlunun 80 illik yubileyi ilə əlaqədar olaraq keçirilən maraqlı tədbirlərdən biri də ədəbi-bədii

gecədir. **"Uzaq, yaşıl adanın sakini"** adlı *ədəbi-bədii gecə* keçirilir. Gecədə Azərbaycanın görkəmli ədibləri; şair və yazıçılar, sənət-söz adamları, bəstəkar və müğənnilər, oxucular, məktəblilər və ümumilikdə vaqifsevərlər, sevgiyə, məhəbbətə dəyər verənlər toplaşır. Qonaqlar şairin şəkilləri, müxtəlif adda əsər başlıqları və şeir misraları yazılmış çərçivələrlə bəzədilmiş zalda öz yerlərini alırlar. Gecənin əvvəlində tədbir iştirakçılarına Vaqif Səmədoğlunun həyat və yaradıcılığından bəhs edən slayd təqdim olunur.

*I aparıcı:* Salam, dəyərli qonaqlar, sizləri bu şeirli gecəmizdə xoş gördük!.. Vaqif Səmədoğlunun poetik düşüncələrinin coğrafi sərhədləri və imkanları çox geniş və zəngindir. Şairin bütün yaradıcılığının ruhunu təşkil edən təbilik və müasirlik, güclü vətənpərvərlik və xəlqilik, dərin beynəlmiləlçilik ideyaları, zəngin, incə, oynaq formada, yüksək obrazlarla öz bədii həllini tapır. Sülh, azadlıq, demokratiya uğrunda mübarizə Vaqif Səmədoğlunun yaradıcılığında geniş yer tutur. Şair bu mövzunu həmişə vətən və xalq anlayışı ilə vəhdətdə görür. Onun vətəndaş duyğuları ilə lirik qəhrəmanın ehtiras və düşüncələri çox vaxt eyniləşir.

*II aparıcı:* Ötən əsrin 60-cı illərində ölkəmizdə ədəbi mühitə yeni ab-hava gətirən istedadlı sənətkarlardan biri olaraq Vaqif Səmədoğlu yarım əsrdən artıq dövr ərzində xalqımızın söz xəzinəsinə dəyərli töhfələr vermişdir. Onun yaradıcılığı müasir Azərbaycan ədəbiyyatında yeni poeziyanın xüsusi mərhələsini təşkil edir. Sənətkarın əsərlərində mənalandırdığı hər bir ifadə Azərbaycan xalqının zəngin ədəbi-bədii irsi, milli folklorun tükənməz imkanları və dünya ədəbiyyatının nailiyyətləri ilə əlaqəlidir. Səmədoğlu həyat və zaman, dünya və insan haqqında lirik-fəlsəfi düşüncələrin özünəməxsus üslubda bənzərsiz mənzərəsini və poetik tapıntılarla dolu zəngin aləmini

yaratmışdır. O, müraciət etdiyi rəgarəng mövzularda vətənin parlaq obrazını daim diqqət mərkəzində saxlayırdı.
*I aparıcı:* Ədəbi tənqidin həmişə fikir poeziyası kimi yüksək dəyərləndirdiyi Vaqif Səmədoğlu lirikası bəşəriliklə milliliyi özündə birləşdirməklə, mənalı yaşamağa çalışması və düşünməyə sövqetməsi sayəsində geniş oxucu kütləsinin rəğbəsini qazanmışdır. Müasir dövrlə ahəngdar surətdə sıx bağlanan sənətkar ənənə ilə novatorluğun vəhdətində, sərbəst şeirin də imkanlarından istifadə edərək, müasir insanların psixologiyasının dolğun və əhatəli təsvirinə nail olmuşdur. Səməd Vurğunun ədəbi varisi olaraq doğma dilin tükənməz imkanlarından ustalıqla bəhrələnən şairin sözlərinə bu gün də sevilə-sevilə oxunan çox sayda mahnılar bəstələnmişdir.
*II aparıcı: V*aqif Səmədoğlu teatr və kino üçün yüksək keyfiyyətlərinə malik silsilə əsərlərin müəllifi idi. Bədii vasitələrin əlvanlığına və təsir gücünə görə seçilən, diqqəti taleyüklü mənəviyyat problemlərinə yönəldən bu əsərləri ona dramaturq şöhrəti gətirmişdir.

Ölkənin və cəmiyyətin həyatında baş verən proseslərə dərin vətəndaşlıq duyğusu ilə yanaşan Vaqif Səmədoğlu, eyni zamanda, ictimai xadim kimi də tanınırdı. O, azərbaycançılıq məfkurəsindən çıxış edərək mədəniyyətimizin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunub yaşadılması üçün qüvvə və bacarığını əsirgəmirdi.
*I aparıcı:* Azadlıq, müstəqillik haqqında nə qədər şeirlər yazılıb. Vaqif şeirlərində heç vaxt azadlıq, müstəqillik deyib səsini qaldırmadı. O azadlıq haqqında, müstəqillik haqqında yandırıcı bir kövrəkliklə, olduqca həzin bir duyğu ilə söz açdı:

Sən mənim
Doğma anamsan, Azadlıq,
Mən sənin
Yad qapısında böyümüş balan...

Sən son ümidimin qaldırdığı
Ağ bayraqsan, Azadlıq,
Mən səni
Yelləndirən külək...

*II aparıcı:* Vaqif Səmədoğlu da Dünya şairin əsəblərindən keçir. Şair zamanı yaşayır; an-an, saniyə-saniyə keçən vaxt şair ürəyindən axıb keçir, süzülür, ağrıdan, əzabdan təmizlənir. Vaqif üçün şairlik daha çox əzabdır. Çünki o həyatın nəşəsindən, təntənə və sevincindən yox, qeyri-insanilik, mənəviyyatsızlıq burulğanının dərin qatlardakı ziddiyyətlərindən, dərddən, kədərdən yazır. Qələmə aldığı hər bir dərdin ağrısını özünün dili ilə desək "diri-dürü" yaşayır:

Əl-qol yorulub,
üzülüb ürək,
beyin taqətdən düşüb,
ümidlər əl-ayaqdan
elə hər şeir, yazı yazmaqdan...
Səhər, gecə,
axşam-gündüz,
yağış, gün altında,
hər gün, hər gün,
hər gün, diri-diri, aman
Allah,
Narkozsuz şeir yazmaqdan...

*I aparıcı:* Vaqif Səmədoğlunun ədəbi və ictimai-siyasi fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, müstəqil Azərbaycan Respublikasının ali təltifləri olan "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenlərinə layiq görülmüşdür. Çağdaş Azərbaycan ədəbiyyatının ictimai fikrimizin görkəmli nümayəndəsi, Xalq şairi Vaqif Səmədoğlu Fəxri xiyabanda, atasının yanında torpağa tapşırılıb. Vaqif Səmədoğlunun ölümü Azərbaycan xalqı üçün böyük və əvəzolunmaz itkidir. Şeirləri dünyanın bir

çox dillərinə tərcümə olunan, misralarından biri-“Saxlayın yer kürəsini, mən düşmək istəyirəm”- Amerika kimi böyük bir ölkədə plakatlara yazılan şairimizi biz özümüz də oxuyub yararlanmalıyıq.

Görkəmli şair, tanınmış ictimai xadim və səmimi insan Vaqif Səmədoğlunun əziz xatirəsi xalqımızın qəlbində həmişə yaşayacaqdır.

Məzarıma
nə baş daşı qoyun,
nə heykəl.
Bir çüt ayaqqabı
qoyun,
ayağı yalın
geyib getsin...

*Tədbirin sonunda məktəblilər “Mən dünyanın axırının necə olacağını bilirəm” deyən Vaqif Səmədoğlu obrazını canlandıran və digər iştirakçılar səhnəyə yaxınlaşırlar.*

– Vaqif bəy, darıxırsınız?

– Hər gün... Həmişə, 57 ildi. Hərdənbir darıxmıram.

– 57 il?

– Düz 57 ildi-anadan olduğum gündən.

– Nədən ötrü darıxırsınız?

– Nə bilim. Bəlkə Allahdan ötrü darıxıram. Azadlıqdan ötrü darıxmışam. Elə şairin sənəti odu da. İş yeri darıxmaqdı. Yazı masası tənhalıq...

## Ədəbiyyat siyahısı

***Əsərləri***

Dramaturgiya. 2 cilddə. I cild : kinopovest, dramlar. - Bakı : Şərq-Qərb, 2014. - 280 s. : foto - (qalın cildli).

Dramaturgiya 2 cilddə. II cild : pyeslər. - Bakı : Şərq-Qərb, 2014. - 270 s. : foto.

Mən burdayam, İlahi... : şeirlər və poema. - Bakı : Gənclik, 2005. - 453 s. : rəngli foto.

Uzaq yaşıl ada : Şeirlər, poemalar. - Bakı : Şərq-Qərb, 2004. - 264 s. - (Müasir Azərbaycan ədəbiyyatı).

***Kitablarda***

Sevgilim mən öləndə ; Sənə olan etibarım ; Gəlmədin və b. şeirlər // Azərbaycan sevgi poeziyası : 3 cilddə : 20-ci əsr Azərbaycan poeziyası. - Bakı : Xəzər Universiteti Nəşriyyatı, 2009. – Kb. 3. – S. 93.-98. - (cildli).

***Dövri mətbuatda***

Gürzəçöl yazıları : Öküz yolu ; Ballıca ; Tut ağacında şinəbub yuvası // Azərbaycan. - 2016. - № 2. - S. 118-121.

Huşsuz heykəlin hekayəti : mono-pyes // Azərbaycan. - 2015. - № 5. - S. 24-29.

Qoxun ; Gələcəklər ; Məni ; Neçə ildir və b. şeirlər // Kaspi. - 2016. - 30 yanvar. - № 18. - S. 12-13.

Ölüm köksümü döyür : Yanvarın 28-də Xalq şairi Vaqif Səmədoğlunun vəfatından 3 il ötür. Şairin yaradıcılığından bir neçə nümunəni təqdim edirik // Kaspi. - 2018. - 27 yanvar. - № 17. - S. 12.

Vaqif Səmədoğlunun gündəliyindən səhifələr : şair bu mətnləri "Əlaltı yazılar" adlandırıb // Kaspi. - 2016. - 30 yanvar. - № 18. - S. 10.

***Haqqında***

***Kitablar***

**Cəfərov N.** Səməd Vurğun... və Səmədoğlular / N. Q. Cəfərov ; red. D. O. Osmanlı. - Bakı : AzAtaM, 2015. - 108 s.

**Yüz il də** Vurğuna Xavər yar olsun ! - Bakı : Nurlan, 2007. - 229 s. : rəngli foto.

***Dövri mətbuatda***

**Ağabalayeva S.** Vaqif Səmədoğlunu yaşamaq // Azərbaycan. - 2016. - № 2. - S. 126-129.

**Axundova E.** Mən burdayam, ilahi : Vaqif Səmədoğlu poeziyası // Ədəbiyyat qəzeti. - 2016. - 6 fevral. - № 5. - S. 3.

**Akimova E.** Bilinmir ömürdür, ya da ki, oyun : "Səni axtarıram, poeziya" silsiləsindən IV yazı // Ədəbiyyat qəzeti. - 2016. - 2 iyul. - № 25. - S. 20-21.

**Akimova E.** Müasir poeziyada çöküş fəlsəfəsi : "İşıqlı qəm içində" yatan V. Səmədoğlunun xatirəsinə ithaf // Ədəbiyyat qəzeti. - 2015. - 7 mart. - № 14/15. - S. 4-5.

**Akimova E.** Təkliyimin yorğun söz azadlığı : Azərbaycanın xalq şairi Vaqif Səmədoğlunun yaradıcılığı haqqında // Azərbaycan : jurnal. - 2016. - № 10. - S. 173-181.

**Akimova E.** Uşaq təbəssümlü şeirlər : Vaqif Səmədoğlu yaradıcılığı haqqında // Kaspi. - 2016. - 30 yanvar. - № 18. - S. 21.

**Akimova E.** Yoxdur Yer üzündə ölüm : Azərbaycanın xalq şairi Vaqif Səmədoğlunun yaradıcılığı haqqında // Ədəbiyyat qəzeti. - 2016. - 30 yanvar. - № 4. - S. 5.

**Amerikada çıxan "Forum** Daily" qəzeti : Vaqif Səmədoğlunun ölümü Azərbaycan xalqı üçün böyük və əvəzolunmaz itkidir // İki sahil. - 2015. - 4 fevral. - № 21. - S. 15.

**Anar.** Vaqif sənətinin təkrarsızlığı // Kaspi. - 2016. - 30 yanvar. - № 18. - S. 14.

**Anar.** Vaqifin Vaqifsiz ilk doğum günü // Ədəbiyyat qəzeti. - 2015. - 6 iyun. - № 36/37. - S. 2.

**Babayeva-Vəkilova N.** Hələ də onu tanımağa davam edirəm... : [Vaqif Səmədoğlunun həyat yoldaşı Nüşabə Babayeva-Vəkilova ilə Fərid Hüseynin söhbəti] // Ədəbiyyat qəzeti. - 2015. - 19 dekabr. - № 63. - S. 16-17.

**Babullaoğlu S.** Vaqif Səmədoğlu : "Sənə xoşbəxtliyi miras qoyuram, Babullaoğlu..." // Ədəbiyyat qəzeti. - 2017. - 1 aprel. - № 11. - S. 4-5.

**Bağırlı A.** Nə qaldı dünyada // Azərbaycan : jurnal. - 2016. - № 2. - S. 124-126.

**Bəhmənli V.** Mən burdayam, İlahi! ; Adaşıma : Vaqif Səmədoğluna həsr olunan şeirlər // Kaspi. - 2016. - 30 yanvar. - № 18. - S. 20.

**Cəfərov N.** Səməd Vurğun... və Səmədoğlular // Ədəbiyyat qəzeti. - 2015. - 14 noyabr. - № 58. - S. 4.

**Dəmirçioğlu N.** Üzünə açılan neçə səhər var : Azərbaycanın xalq şairi Vaqif Səmədoğlunun yaradıcılığı haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 13 iyun. - № 38/40. - S. 20-21.

**Elcanlı S.** Sirli adanın sakini : şair, dramaturq, publisist Vaqif Səmədoğlunun yaradıcılığı haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 12 dekabr. - № 62. - S. 8-9.

**Əbilov E.** Uzaq, yaşıl adanın sakini : [şair, dramaturq, publisist Vaqif Səmədoğlu haqqında] // Kaspi. - 2016. - 30 iyul. - № 130. - S. 16-17.

**Əfəndi A. Sadiq.** Bir ocağın başında : Vaqif Səmədoğluna həsr olunan şeir // Kaspi. - 2016. - 30 yanvar. - № 18. - S. 15.

**Əli V.** Səməd Vurğunun ev muzeyində "60-cılar" mövzusunda söhbət : Professor, Xalq şairi Osman Sarıvəllinin oğlu Babək Qurbanov, muzeyin direktoru Nüşabə Babayeva-Vəkilova və ədəbi tənqidçi İradə Musayevanın fikir mübadiləsi // Kaspi. - 2016. - 3 sentyabr. - № 138. - S. 12-13.

**Əlişanoğlu T.** Ekzistensial insan sorağında : Vaqif Səmədoğlunun "Mən burdayam, İlahi!" kitabı haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 23 yanvar. - № 4/5. - S. 18-19.

**"Forum Daily": "Böyük** Vaqif Səmədoğlunu tanıyanlar..." : Amerikanın populyar "Forum Daily" jurnalı xalq şairinin vəfatından yazdı // Kaspi. - 2015. - 7 fevral. - № 24. - S. 14.

**Hüseyn F.** Onsuz anları göstərən saat : [Nüşabə Babayeva-Vəkilova : "Vaqif Səmədoğlu həyatı və həyatla bağlı hər şeyi sevirdi] // Kaspi. - 2018. - 3 fevral. - № 22. - S. 16-17.

**Hüseyn F.** Onsuz... : Vaqif Səmədoğlusuz 1 il // Kaspi. - 2016. - 30 yanvar. - № 18. - S. 9.

**Kamal R.** Səmədoğlular, saat neçədir? // Ədəbiyyat qəzeti. - 2016. - 10 sentyabr. - **№ 33**. - S. 6.

**Kamal R.** Vaqif Səmədoğlunun yuxuları // Ədəbiyyat qəzeti. - 2015. - 6 iyun. - № 36/37. - S. 3.

**Qarayev M.** Dəmir qapı Dərbənd : Vaqif Səmədoğluna həsr olunan şeir // Kaspi. - 2016. - 30 yanvar. - № 18. - S. 15.

**Qasımzadə İ.** Sabahın xeyir, Vaqif! : 2016-cı il yanvar ayının 28-i Vaqif Səmədoğlunun vəfatının ildönümüdür // Azərbaycan : jurnal. - 2016. - № 2. - S. 116-117.

**Qəlbinur P.** Toxalar : Vaqif Səmədoğluna həsr olunan şeir // Kaspi. - 2016. - 30 yanvar. - № 18. - S. 15.

**Qoca F.** Otuz : Vaqif Səmədoğluna həsr olunan şeir // Kaspi. - 2016. - 30 yanvar. - № 18. - S. 15.

**Mehdi Q.** Şair mərdanəliyi : Xalq şairi Vaqif Səmədoğlunun əziz xatirəsinə : esse // Ədəbiyyat qəzeti. - 2015. - 30 yanvar. - № 6/7. - S. 3.

**Mirseyid A.** Yəqin : Vaqif Səmədoğluna həsr olunan şeir // Kaspi. - 2016. - 30 yanvar. - № 18. - S. 15.

**Musayeva İ.** Həyata vurğun pessimist Vaqif Səmədoğlu / İradə Musayeva ilə müsahibə / söhbətləşdi F. Hüseyn // Kaspi. - 2015. - 5 sentyabr. - № 143. - S. 10-11.

**Nəsib V.** Vaqif Səmədoğlu ilə üzü Muğana // Ədəbiyyat qəzeti. - 2018. - 9 iyun. - № 23. - S. 14.

**Nüşabə.** Sənə, sevgilim // Azərbaycan : jurnal. - 2016. - № 2. - S. 122-123. – Müəllif şairin həyat yoldaşı Nüşabə xanım Babayeva-Vəkilovadır.

**Osmanoğlu M.** Onun şair taleyini şeri yazdı... : Xalq şairi Vaqif Səmədoğlunun məzarüstü abidəsinin ictimaiyyətə təqdim edilməsini son günlərin ən təsirli mədəniyyət hadisəsi hesab etmək mümkündür // Ədəbiyyat qəzeti. - 2015. - 3 oktyabr. - № 51. - S. 4-5.

**Pərvin.** Şeir kimi ölən şair : Vaqif Səmədoğlu // Kaspi. - 2016. - 30 yanvar. - № 18. - S. 23.

**Rövşən R.** Üç yarpaqdan biri : Vaqif Səmədoğlunun xatirəsinə // Ədəbiyyat qəzeti. - 2015. - 7 mart. - № 14/15. - S. 4.

**Sərvaz.** "Köçüb o dünyaya bu dünya oldu..." : Azərbaycanın xalq şairi Vaqif Səmədoğlu haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 30 yanvar. - № 6/7. - S. 3.

**Vaqif Səmədoğlu (1939-2015)** // Savalan. - 2018. - 5-7 iyun. - № 34. - S. 2.

**Vaqif Səmədoğlu ilə** hələ çox söhbət edəcəyik : [Xalq şairi Vaqif Səmədoğlunun vəfatından sonra nəşr edilmiş "Gürzəçöl yazıları" adlı pritçalar kitabı haqqında] // Ədəbiyyat qəzeti. - 2016. - 17 dekabr. - № 50. - S. 11.

**Vaqif Səmədoğlu ömründən** yarpaqlar // Yeni Azərbaycan. - 2015. - 31 yanvar. - № 19. - S. 6.

**Yunisli F.** "Tanrının açılmaz sirridi şair..." : Şairlər Günü Vaqif Səmədoğlunun xatirəsinə həsr olunmuşdu // Mədəniyyət. - 2016. - 8 iyun. - № 44. - S. 11.

***Şairə həsr olunmuş şeirlər***

**Babullaoğlu S.** Otel : Vaqif Səmədoğluna həsr olunan şeir // Kaspi. - 2016. - 30 yanvar. - № 18. - S. 15.

**Rövşən R.** Canavar : Vaqif Səmədoğluna həsr olunan şeir // Kaspi. - 2016. - 30 yanvar. - № 18. - S. 15.

**Vəliyeva S.** Kaş "Yarı"lar qala : Vaqif Səmədoğluna həsr olunan şeir // Kaspi. - 2016. - 30 yanvar. - № 18. - S. 15.

# Vaqif  Səmədoğlu sənətinin təkrarsızlığı

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 26
Çapa imzalanmışdır: 24.04.2019
Tirajı:100
Pulsuz